# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## XİDMƏTDƏN İSTİFADƏYƏ DAİR

## TƏLİMAT

**Xidmətin adı:** **“İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamə verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu”**

# 1

İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnaməni almaq üçün istifadəçi Nazirliyin saytında yerləşdirilmiş Elektron xidmətlər bölməsinə daxil olaraq Elektron xidmətlər portalına (e-xidmet.minenergy.gov.az) keçid edir və həmin portalda “İnteraktiv Xidmətlər” bölməsinə daxil olur.



# 2

İstifadəçi Fiziki şəxs olduqda "Fiziki Şəxslər" bölməsinə keçid vasitəsi ilə müraciət edir.




# 3

Xidmətə müraciət bölməsinin yuxarı hissəsində tələb olunan bölmələr (Adınız, Şəxsiyyət vəsiqəsinin seriyasını, Ünvan, Xarici iqtisadi əməliyyatın növü, VÖEN və e-Poçt ünvanı) müvafiq qaydada doldurulur (*-ulduz işarəsi ilə işarələnmiş sahələrin doldurulması mütləqdir).



Xidmətə müraciət bölməsinin tələb olunan sənədlərin sistemə yükləndiyi aşağı hissəsində ərizə forması sistemdən endirilir ***(1)***, elektron doldurularaq kompyuterin yaddaşında saxlanılır ***(2)*** və müvafiq sətirə yüklənilir ***(3)***.

***(1)***




***(2)***




***(3)***



İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin alınması üçün tələb olunan digər sənədlər skan edilərək müvafiq bölmələr vasitəsilə sistemə yüklənilir, yoxlama şifrəsi daxil edilir və “Göndər” düyməsi basılır.




Sənədlər sistem tərəfindən qəbul olunduqdan sonra ekranda təsdiq bildirişi görünür və istifadəçinin müvafiq bölməyə daxil etdiyi elektron poçt ünvanına müraciət barədə məlumat göndərilir.




## DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK !